# QARABAĞ DÜZÜNÜN SUVARILAN TORPAQLARI

**Zaman Məmmədov, Sona Osmanova**

*AR ETN Torpaqşünaslıq və Aqrokimya İnstitutu, Bakı*
*zamanmammadov81@gmail.com*

Qarabağ düzündə taxılçılığın inkişafında ən əhəmiyyətli amil torpaqların suvarılmasıdır. Azərbaycan qədim suvarma əkinçiliyinin mərkəzlərindən biri hesab olunur. Azərbaycanda və Qarabağ düzündə əldə edilən kənd təsərüfatı məhsullarının 80-85% suvarılan torpaqlardan əldə edilir. Suvarılan torpaqların deməк olar ki, hamısı əkin və çoxəkmələr altında istifadə olunur. Suvarılmayan torpaqların bir hissəsi əkin altında, qalan hissəsi otlaq və biçənəklər altında istifadə olunur. Kənd təsərrüfatı istifadəsində olub, suvarılmayan (həmçinin taxılçılıqda dəmyə altında istifadə olunan) torpaqların ümumi sahəsi Qarabağ düzündə 235052,91 hektar olub, təsərrüfat torpaqlarının 57,68%-i təşkil edir.

Suvarılan torpaqların ümumi sahəsi isə 172431,08 hektar olub, kənd təsərrüfatı torpaqlarının 42,32%-ni əhatə edir. Bu torpaqların 106973 hektarı "suvarılan", 65458,08 hektarı "qədimdən suvarılan" torpaqlar kateqoriyasına aid edilmişdir.

Qarabağ düzündə suvarılan torpaqlar həm torpaq yarımtipləri üzrə, həm də torpaqlar daxilində müxtəlif çəkiyə malikdirlər.

Qarabağ düzü torpaqlarının sahə göstəricilərinin təhlilindən görünür ki, suvarılan torpaqların ən böyük göstəricisi açıq şabalıdı (46165,96 ha), şabalıdı (37984,41 ha) və açıq çəmənləşmiş-boz (36290,08 ha) torpaqların payına düşür (cədvəl 1).

Qalan torpaq yarımtipləri üzrə suvarılan torpaqların xüsusi çəkisi demək olar ki, bərabər şəkildə paylanmışdır: adi çəmənləşmiş-boz (22489,45 ha); tünd şabalıdı (2011,1 ha); çəmən şabalıdı (5548,15 ha); boz-qonur (1136,4 ha); çəmən-boz (3183,6 ha); açıq çəmən-boz (6166,7 ha); tünd çəmənləşmiş-boz (11455,23 ha).

Suvarılan torpaqların inzibati rayonlar üzrə paylanmasının təhlili göstərir ki, onların ən böyük hissəsi Ağcabədi (57592,78 ha) rayonunda cəmləşmişdir. Digər rayonlar üzrə bu göstərici aşağıdakı kimi paylanmışdır: Ağdam (46121,75 ha); Bərdə (42726,9 ha); Tərtər (25989,65 ha). İnzibati rayonlar daxilində yayılmış torpaqların yarımtipləri daxilində suvarılmanın xüsusi çəkisi də fərqlənir.

Ağdam rayonunda suvarılan torpaqların 27549,01 hektarı açıq şabalıdı torpaqların payına düşürsə, Ağcabədi (16747,53 ha) və Bərdədə (19542,55 ha) suvarılan torpaqların böyük hissəsi açıq çəmənləşmiş-boz torpaqların hesabınadır. Yalnız Tərtər rayonunda suvarılan torpaqların 12623,36 hektarı şabalıdı torpaqların payına düşür.

**Cədvəl 1.**

Qarabağ düzündə torpaq yarımtipləri üzrə suvarılan torpaqların xüsusi çəkisi (ha/%)

| Torpaqların adı | Sahəsi | |
|---|---|---|
| | ha | % |
| Tünd şabalıdı | 2011,1 | 1,17 |
| Şabalıdı | 37984,41 | 22,03 |
| Açıq şabalıdı | 46165,96 | 26,77 |
| Çəmən-şabalıdı | 5548,15 | 3,22 |
| Boz-qonur | 1136,4 | 0,66 |
| Çəmən-boz | 3183,6 | 1,85 |
| Açıq çəmən-boz | 6166,7 | 3,58 |
| Tünd çəmənləşmiş-boz | 11455,23 | 6,64 |
| Adi çəmənləşmiş-boz | 22489,45 | 13,04 |
| Açıq çəmənləşmiş-boz | 36290,08 | 21,04 |
| | **172431,08** | 100% |

Digər torpaqlarda inzibati rayonlar üzrə suvarılan torpaqların xüsusi çəkisi aşağıdakı kimi olmuşdur.

Ağdam: tünd şabalıdı (1504,45 ha); şabalıdı (15694,69 ha); çəmən-şabalıdı (1072,9 ha).

Ağcabədi: tünd şabalıdı (506,65 ha); şabalıdı (8577,66 ha); açıq şabalıdı (11505,61 ha); boz-qonur (683,10 ha); çəmən-boz (2882,9 ha); açıq çəmən-boz (3972,5 ha); tünd çəmənləşmiş-boz (3893,25 ha); adi çəmənləşmiş-boz (8823,58 ha).

Bərdə: şabalıdı (1088,7 ha); açıq şabalıdı (414,5 ha); boz-qonur (453,3 ha); tünd çəmənləşmiş-boz (7561,98 ha); adi çəmənləşmiş-boz (13665,87 ha).

Tərtər: açıq şabalıdı (6696,84 ha); çəmən-şabalıdı (4475,25 ha), açıq çəmən-boz (2194,21 ha).

Beləliklə, suvarılan torpaqların həm torpaq yarımtipləri, həm də inzibati rayonlar üzrə təhlili göstərir ki, Qarabağ düzü dəmyə və suvarma şəraitində taxılçılığın inkişaf etdirilməsi üçün kifayət qədər sahə potensialına malikdir.